**UOT 78.03**
**https://doi.org/10.59849/2311-8482.2024.1.245**

**SEVDA HÜSEYNOVA***

# AZƏRBAYCAN XALQ ÇALĞI ALƏTLƏRİNİN TEXNİKİ VƏ BƏDİİ İFADƏ İMKANLARININ SPESİFİK XÜSUSİYYƏTLƏRİ

*Məqalədə Azərbaycan xalq çalğı alətlərinin texniki və bədii ifadə imkanlarının spesifik xüsusiyyətləri araşdırılmış, hər bir alət öz quruluşuna, səs diapazonu və tembrinə görə təhlil edilmişdir. Belə nəticəyə gəlinmişdir ki, hər bir alətin özünəməxsus fərdi ifa xüsusiyyətləri vardır.*

*Araşdırma zamanı məlum oldu ki, musiqi alətlərinin yaranması və indiki görünüşdə formalaşmasına qədər olan mərləhə uzun bir prosesi əhatə edir. Xalq çalğı alətlərinin yaranması insan cəmiyyətinin erkən inkişaf mərhələsində əmək prosesi ilə bağlı olmuş, onların bir çoxu ilkin yaranış formasında olduğu kimi müasir dövrümüzə gəlib çatmış, qədim xalq çalğı alətlərinin bərpası ilə məşğul olan tədqiqatçıların bu yöndə apardıqları araşdırmalar xüsusilə əhəmiyyətli olmuşdur.*

*Hazırda milli xalq çalğı alətlərinin öyrənilməsi Azərbaycan orqanologiya elminin əsas istiqamətini təşkil edir. Bu istiqamət üzrə aparılan tədqiqatlar Azərbaycan xalq çalğı alətlərinin dərindən araşdırılması istiqamətində mühüm addımlar kimi dəyərləndirilməlidir. Eyni zamanda mövcud olan xalq çalğı alətləri ilə yanaşı, unudulmuş alətlərin bərpası, onların inkişaf və quruluş xüsusiyyətlərinin öyrənilməsi müasir dövrdə orqanologiya elmi qarşısında duran mühüm vəzifələrdəndir. Bu istiqamətdə ənənəvi musiqi alətlərinin morfoloji-orqanoloji tədqiqi, musiqi alətlərinin istifadə olunma xüsusiyyətləri öyrənilməsi vacib məsələlərdəndir və aparılan elmi-tədqiqatların əksər hissəsi bu mövzulara doğru yönəldilmişdir.*

*Azərbaycan xalq çalğı alətlərinin inkişaf tarixi və təkamülünün, texniki-bədii imkanlarının və tətbiqi sahələrinin öyrənilməsinin əsas mənbələri musiqişünaslıq əsərləri, klassik poeziya nümunələri, şifahi xalq yaradıcılığı, tarixi salnamələr, qocaman musiqiçilərin, həvəskarların və digərlərinin məlumatlarına əsaslanır.*

*Azərbaycanda mövcud olmuş və hazırda da istifadə olunan xalq çalğı alətlərinin növləri müəyyənləşdirilərkən, klassik poeziyada da rast gəlinən müəyyən məlumatlar əsas rol oynayır. Belə ki, klassik poeziya nümunələrində alətlərin adlarının qeyd olunması ilə yanaşı, onların quruluşu, tembr xüsusiyyətləri, istifadə sahəsi, xarici görünüşü və digər bizə məlum olmayan tərəfləri haqqında məlumatlarla rastlaşmaq mümkündür.*

***Açar sözlər:*** *Azərbaycan musiqisi, xalq çalğı allətləri, orqanologiya*

## Giriş

Azərbaycan xalqının milli sərvəti sayılan çalğı alətləri zənginliyi və müxtəlifliyi ilə seçilir. Azərbaycanlıların yaşadığı ərazilərdə arxeoloji qazıntılar zamanı aşkar olunan əşyaların üzərində müxtəlif çalğı alətləri həkk edilməsi, onların qədim tarixə malik olmasını göstərir. Maddi-mədəniyyət nümunələri, klassik şairlərimizin əsərləri, orta əsr musiqişünaslarımızın risalələri və həmin dövr rəssamlarının çəkdikləri miniatürlər, divar rəsmləri, ölkəmizə səyahət edən səyyahların gündəlikləri, muzey kolleksiyaları vaxtilə Azərbaycanda 90-a yaxın çalğı alətinin istifadə olunması fikrinə gəlməyə əsas yaradır.

## Əsas təhlil

Orta əsrlərdə mizrabla çalınan simli alətlər daha geniş yayılmışdı. "Kitabi-Dədə Qorqud"da göstərildiyi kimi qopuz indiki aşıqların əcdadı sayılan ozanların sevimli aləti idi. İki-üç simli qopuz saza çox oxşayırdı. Bərbətin uda bənzəyirdi və ölçücə ondan bir qədər böyük idi. Mükəmməl alət sayılan udun kökü başqa alətlər kökləndikdə əsas götürülürdü. Azərbaycanda hazırda Mərkəzi Asiyada istifadə olunan qaşqar rübabı və tənbur da geniş yayılmışdı. Tənburun dütar, setar, çartar, pənctar, şeştar, növləri də səslənirdi. Üç simli ozanın çanağının çox hissəsi dəri ilə örtülmüşdü. Donqar tənbura oxşar alət sayılırdı. Xanəndə Rzaəddin Şirvaninin ixtira etdiyi şeşxananın uda çox oxşarlığı var idi. Uda bənzər alətlərdən biri də şeştay və 8-9 simli çexesdə idi. Orta əsrlərdə Azərbaycanda geniş yayılan alətlərdən olan çəng xanəndələrin, çalğıçıların, şairlərin sevimli alətlərindən idi. Gövdəsi qövsvarı şəkildə olan çənglə yanaşı, qanunabənzər üçbucaq və dördbucaq şəkilli, xüsusi çubuqlarla səsləndirilən çəng və nüzhət istifadə olunurdu.

Azərbaycanda görkəmli musiqişünas Səfiəddin Urməvinin ixtira etdiyi nüzhə və müğnü alətləri də mövcud idi. Nüzhə özündə çəng və qanunun quruluşu əsasında hazırlanmışdı. Dördbucaq şəkilli alət 81 simə malik idi. 33 simli müğni xarici görünüşlə rübaba çox oxşayırdı, lakin ölçücə ondan böyük idi. Yaxın keçmişdə Azərbaycanda gövdəsi trapesiya şəkilli qutudan ibarət olan və çubuqlarla səsləndirilən santura rast gəlinirdi. Onun simlərinin sayı 96-ya çatırdı.

At tükündən hazırlanan kamanla çalınan alətlərdən Azərbaycanda çəğanə, çəğanaq və kəman yayılmışdı. Çəğanənin çanağı armud şəklində idi. İki və ya üç simli alət kamança kimi dayağı ilə döşəməyə söykənilirdi. Üç simli çəğanağın çanağı xəlbiri xatırladırdı. Kəman isə xarici görünüşlə skripkaya bənzəyirdi.

Qədim mənbələrə əsaslanaraq, müasir dövrdə milli xalq çalğı alətlərinin təsnifatını aparmaq mümkündür. "XIV-XV əsrlərdə yaşamış Azərbaycan musiqişünaqs-alimi Əbdülqadir Marağalı çalğı alətləri haqqında yazır: "Musiqi alətləri 3 növə bölünür. Bəzilərinin fikrincə dörd növdür. 1-insan boğazı, 2-nəfəs alətləri, 3-simli alətlər (telli), 4-kasalı, taslı və lövhəli alətlər." [3, s.6]

Təsnifata görə Azərbaycanda yayılmış alətlərin 32-ni simli alətlər təşkil edir. Bu simli alətlərdən 26-sı mizrabla, 4-ü kamanla, 2-si çubuqla çalınır. 23 xalq çalğı aləti nəfəs, 16-sı zərb, 17-si isə özüsəslənən alətlər qrupuna aiddir.

Yaranma tarixinə görə Azərbaycan çalğı alətləri 4 yerə bölünür:

1. Qədimdə yaranan və çağdaş dövrümüzə qədər gəlib çıxan alətlər: tar, kamança, tulum, tütək, saz, balaban, zurna, nağara, dəf və s.

2. Qədimdə yaranıb unudulmuş, sonradan bərpa edilmiş alətlər: bərbət, rud, çəng, kos, qaşığek, çanaq və s.

3. Şərti olarag "çağdaş" adlandırılan alətlər: Qoşqar rübabı, dütar, setar, tənbur, davul, dairə, kərənay, musiqar və s. Bu qrupa aid edilən alətlər vaxtı ilə Azərbaycanda geniş istifadə edilsə də, sonralar müəyyən səbəblərdən tənəzzülə uğrayıb, sıradan çıxıblar. Lakin başqa ərazilərdə, dünyanın müxtəlif xalqları tərəfindən belə alətlər inkişaf etdirilmiş, müasir dövrə qədər gəlib çıxmışdır. "Müasir" alətləri əldə etmək o qədər də çətin deyildir. Yalnız kiçik dəyişikliklər etməklə, bu alətləri vaxtı ilə Azərbaycan ərazisində istifadə edilmiş formada hazırlamaq mümkündür.

4. Çağdaşlarımız tərəfindən icad edilən alətlər: sinəud, zülfar, dilrüba, əsa nej, neyvari və s.

Qopuz aləti. Ən qədim simli çalğı alətlərindən biridir. Vaxtilə Azərbaycan ozanlarının ifaçılıq sənətində tətbiq və istifadə etdikləri əsas çalğı aləti olmuşdur.

Qopuz alətinin yaranma tarixi eramızdan çox-çox əvvəllərə aid edilir. ABŞ arxeoloqlarının 1960-cı ildə Cənubi Azərbaycanın Şuşdağı ətəyində yerləşən Cığamış qədim insan məskənində apardıqları qazıntılar zamanı e.ə. VI minilliyə aid edilən nadir mədəniyyət nümunələri aşkar edilmişdir. Bu tapıntılardan ən maraqlısı sinəsində qopuz tutmuş ozan və bir neçə başqa musiqiçidən ibarət musiqi məclisinin təsvir edildiyi saxsı qabdır. Qopuz türk xalqlarının yaşadıqları geniş coğrafi ərazilərdə məlum olmuşdur. "Kitabi Dədə Qorqud" dastanlarında xatırlanan qolça qopuz bir neçə adda təqdim olunur. Kitabda adları çəkilən "quruluca qopuz", "alça qopuz" ayrı-ayrı alətlərin deyil, eyni bir alətin müxtəlif cəhətlərini açıqlayır.

Tütək aləti. Tütək ən qədim nəfəsli musiqi alətidir. İnsanlar tarixin müxtəlif dövrlərində qarğı, qamış, sümük, ağac, saxsı və metaldan nəfəsli musiqi alətləri düzəltmişlər. Tütək bir vaxtlar, əsasən, çobanların istifadə etdiyi üfləmə ağac musiqi aləti olmuşdur. Belə güman edilir ki, tütəyi çobanlar icad etmiş, ilk dəfə onlar dilə gətirmişlər. Onun səs düzümü kiçik oktavanın "si" səsindən üçüncü oktavanın "do" səsinə qədərdir. Mahir ifaçılar bir neçə səs də əlavə edə bilirlər. Tütək, əsasən, qamışdan hazırlanır. Silindrik gövdəsinin (uzunluğu 280-350 mm, diametri 20 mm) aşağı ucu bir qədər yonulur, baş tərəfi isə çəp kəsilir və daxilinə taxta keçirilir. Baş hissəsinin üst tərəfində səs alınması üçün kvadrat şəkilli dəlik açılır və səsi nizamlamaq üçün metal halqa keçirilir. Gövdənin üst tərəfində 7, alt tərəfində isə 1 dəlik açılır.

Azərbaycanda böyük və kiçik növləri orkestr və ansamblların tərkibində, əsasən, solo aləti kimi istifadə edilir. Səs tembri mülayim və məlahətlidir. Nizaminin, Xaqaninin, Füzulinin əsərlərində bu zərif musiqi aləti haqqında məlumatlara rast gəlinir. "Bəstəkarlarımız tütəkdən solo alət olmaqla yanaşı, həm də bəzəyici, bəzi hallarda müşayiətçi alət kimi istifadə edirlər." [7, s. 60]

Zurna aləti. Zurna milli musiqi aləti ən qədim çalğı alətlərindən biridir və bu alətin ən azı 3 minillik tarixi vardır. Zurnanın "surnay" sözündən olub, sur "böyük ziyafət", "qamış" mənasını verdiyi güman edilir.

Xalqımız zurna (o "qara zurna" da adlanır) sədaları altında oğullarını döyüşə göndərmiş, əmin-amanlIq dövründə isə səsi şənliklərdən, toy-düyünlərdən, idman yarışlarından eşidilmişdir.

Azərbaycan xalqının ruhunu, zövqünü oxşayan nəfəsli musiqi aləti sayılan zurnanın (sur)

adına “Kitabi-Dədə-Qorqud” dastanlarında da rast gəlirik. Zurna haqqında Azərbaycan xalqının qəhrəmanlıq dastanı sayılan “Koroğlu”da da məlumat var. XII əsrin Azərbaycan şairi Nizami Gəncəvinin əsərlərində də zurna-sur alətinin adı çəkilmişdir. Adətən heyva, armud, qoz və ərik ağaclarından hazırlanan zurnanın üstündə 7, altında isə bir deşiyi olur. 28 –30 sm uzunluğunda olan zurnanın baş tərəfi dar, qurtaracağının diametri isə nisbətən böyük olur. Zurnanın ucuna mil keçirilir. Milə sümükdən dairəvi tağalaq bərkidilir. Bəzən isə ustad zurnaçılar öz zurnalarının üzərini naxışla bəzəyirlər ki, daha da yaraşıqlı görünsün.

Zurnanın tərkib hissələrinə gövdə (kötük, karxana), mil, dil və tağalaq daxildir. Gövdə, əsasən, nəm çəkməyən ərik ağacından hazırlanır. Gövdənin üzərində səkkiz, arxasında isə bir çalğı dəliyi açılır. Gövdənin diametri altıncı dəlikdən artaraq konusvari şəkilalır. Enli ayaq hissəsindəki dəlik həmişə açıq qalır. Gövdəyə baş tərəfdən cır söyüddən hazırlanmış haça şəkilli “maşa” salınır. Ona bürünc və misdən düzəldilən mil taxılır. Milin aşağı ucuna isə qamış “dil” bərkidilir. Milə sədəf və ya sümükdən hazırlanmış dairəvi şəkilli “tağalaq” keçirilir. Çalğı zamanı dodaq ona toxunur. Dil çalğıdan sonra qapaqla örtülür.

Balaban aləti. Balaban aləti Azərbaycanın qədim xalq musiqi alətidir. Xalq arasında balaban və ya “yastı balaban” adı ilə tanınır. Yumşaq və həzin səsə malik balabandan ansambl, orkestr və solo aləti kimi nəfəsli alətlər qrupunu, o cümlədən aşıqlar dəstəsini müşayiət etmək üçün istifadə edilir. “Balaban” sözünün mənası “bala” (kiçik) və “ban” (səs tembrinin xoruz banına bənzədilməsi) sözləri ilə bağlı olub, “kiçik ban” (ilk, erkən ban) deməkdir. Həzin kolorit yaradan səslər alətdə nəfəsin uzadılmasıyla əldə edilir.

Balabanın əsas xüsusiyyəti ondadır ki, arası kəsilmədən nəfəsi ağızdan buruna, burundan ağıza dövretmə ilə ötürərək bir notun üzərində uzun müddət çalmaq olur. Azyaşlı və təcrübəsi az olan şagirdlər tərəfindən bu texniki imkanlarla ifa çox çətindir lakin, bu müəyyən vaxtdan və təcrübə əldə etdikdən sonra mümkünləşir.

Tütəkdə, eləcə də Avropa nəfəs alətlərinin heç birində (klarnet, qaboy) dövretmə xüsusiyyəti yoxdur. Yalnız zurna və balabanda dövretmə var. Azərbaycanda xalq artisti, qaboy ifaçısı Kamil Cəlilov digər qaboyçalanlardan seçilir, yəni aləti ağızdan buruna və geriyə dövretmə ilə çalır.

Tar aləti. Azərbaycan milli xalq çalğı alətləri arasında geniş yayılan tar mizrabla çalınan alətlərdəndir. Onun özünəməxsus səsləniş tərzi vardır. Bu səsləniş tərzi tarın hissələrinin tut, qoz və armud ağaclarından hazırlanmasından, gövdəsinin açıq tərəfinə çəkilən pərdənin təbiiliyindən, müxtəlif qalınlıqda və tərkibdə olan simlərinin sayından, onların bağlanma qaydasından və köklənmə müxtəlifliyindən yaranmışdır.

Müasir şəklini alanadək tar böyük inkişaf yolu keçmişdir. Onun adına orta əsr mənbələrində rast gəlinir. Belə ki, XI-XIII əsrlərdə yaşamış Baba Tahir və Qətran Təbrizinin şeirlərində tar alətinin adına rast gəlinir.

Tar Azərbaycanda geniş istifadə edilən simli musiqi alətidir. Farsca “tar” sözünün mənası “sim” deməkdir. Tarı ilk dəfə Carco şəhərinin Fərab adlı bir kəndində X əsrdə Türküstan türklərindən Tərxanın oğlu Məhəmməd düzəltmişdir.

Yarandığı ilk dövrdə tar diz üstündə çalınırdı. XIX əsrin II yarısında Azərbaycanlı tarzən Mirzə Sadıq (Sadıqcan) tərəfindən tarın quruluş və formasında dəyişikliklər edilmişdir. O, tarın tutma qaydasında da dəyişikliklər edərək tarı diz üstündən sinəyə qaldırmışdır. Məhz onun təkmilləşdirdiyi Azərbaycan tarı Qafqazda və Orta Asiyada geniş yayılmışdır.

Tar aləti özünəməxsus quruluşa malikdir. Əsasən, üç hissədən - çanaq, qol və aşıxlar yerləşən kəllədən ibarətdir. Tarın təkmilləşdirilərək müasir şəklə salınmasının milli muğam sənətinin də inkişafında böyük rolu olmuşdur. Bununla əlaqədar tar təkcə müşaiyətçi bir alət funksiyasından uzaqlaşaraq, eyni zamanda solo ifaedici bir çalğı alətinə çevrilmişdir.

Qeyd etdiyimiz kimi, tarın əsaslı şəkildə təkmilləşməsi Azərbaycan musiqi tarixinə mahir tarzən, böyük novator sənətkar kimi daxil olmuş Mirzə Sadıq Əsəd oğlunun adı ilə bağlıdır. Sadıqcana qədər tarın beş simi olmuşdur. O, kök və zəng simləri əlavə etmiş, qolda 22 pərdə saxlayaraq, onların yerini müəyyənləşdirmiş, alətin tez-tez kökdən düşməməsi üçün gövdəyə daxili tərəfdən “iç qol” pərçim etmişdir. Çəkisi yüngülləşmiş tar əvvəlki kimi diz üstündə deyil, sinə üstündə tutulmuşdur. Bununla da tarın texniki imkanları çox genişlənmişdir. Sadıqcanın təkmilləşdirdiyi tar tez bir zamanda ölkəmizin hüdudlarından da kənarda yayılmışdır. Onu artıq “Azərbaycan tarı” adlandırmağa başlamışlar.

Tara üstdən baxdıqda onun gövdəsi səkkiz rəqəmini xatırladır, böyük və kiçik çanaq hissələrə

ayrılır. Nisbətən uzun qoluna 22 pərdə bağlanır. Alətin 11 metal simi vardır. Onlar rənginə görə ağ (polad qarışığı olan metaldan hazırlanır), sarı (bürüncdən) və qırmızı (ağ simlərin üzərinə qırmızımtıl və ya sarımtıl bürünc tel sarınır) simlər adlanır. Ən aşağıda yerləşən iki qoşa (ağ və sarı) sim əsas simlər sayılır, çünki ifa olunan əsərin melodiyası onlarda səslənir. Sonra qoşa – qırmızı (bəzən sarı) və ağ (onun yerinə sarı sim də bağlana bilər) simlərdən ibarət olan kök (dəm) simlər, ondan da yuxarıda qalın qırmızı — bəm kök, ton sim yerləşir. Kök simlərdən yuxarı iki cüt ağ sim – zəng (cinginə) simlər bağlanır. Əsas və zəng simlər kəllədə yerləşən 6 iri, kök simlər isə kiçik aşıqlara sarınır. Qoşa ağ, sarı və zəng simlər daimi kökə malikdirlər. Üç kök simlər isə ifa olunan muğam və ya əsərin məqam əsasından asılı olaraq, müxtəlif ucalığa köklənirlər. Çalğı zamanı müxtəlif mizrab vurma üsullarından istifadə olunur.

Dahi Üzeyir Hacıbəyli tarı ilk dəfə olaraq, simfonik orkestrin tərkibinə daxil etmiş və özünəməxsus səslənişini Avropa mənşəli alətlər sırasında saxlamağa müvəffəq olmuşdur.

Kamança aləti. Kədərli səs tembrə malik olanvə ürəklərə rahatlıq gətirən, insanı xəyala dalmağa vadar edən həzin və həm də füsunkar səsli qədim kamança bir simli olub, uzun qola və dayağa malikdir.

XII əsrdə dahi Azərbaycan şair-mütəfəkkiri Nizami Gəncəvinin “Xosrov və Şirin” əsərində, XVI əsr Təbriz rəssamlıq məktəbinin nümayəndəsi Mir Seyid Əlinin “Musiqi məclisi” rəsm əsərində kamança təsvir edilmişdir. Kamança ifaçılığının Azərbaycanda yüksək inkişafı XIX əsrin ikinci yarısından başlayaraq xanəndəlik sənətinin inkişaf etməsi ilə bağlıdır.

Kamança sözünün mənası farsca “yay, qövs” deməkdir, sözün sonuna artırılan -ça isə kiçiltmə şəkilçisidir. Sözün türkcə qarşılığı “qişek”dir. Bir və iki simli kamançanın nə vaxtsa yaylı qopuzdan formalaşması ehtimal edilir. Hazırda dörd simli kamançadan istifadə olunur. Kamançanın müxtəlif növləri başqa adlarla Şərq və Orta Asiya xalqları arasında yayılmışdır. Keçən əsrdə üç simli, dörd simli və hətta beş simli kamançanın mövcudluğuna rast gəlinir.

Dahi bəstəkar Ü.Hacıbəyli kamançaya yüksək qiymət verərək yazırdı: “Uzun səsli, telli musiqi alətlərinin yeganə nümayəndəsi kamançadır. Kamançada çalınan musiqi səscə daha mükəmməl və insan səsinə daha yaxındır.” [2, s.223]

Hazırda müasir kamançanın dörd simi vardır. Onlardan 3-cü və 4-cü bəm simlər mis və bürünc tellə sarınmışdır. Simlər zoğal ağacından hazırlanmış bir qədər əyilmiş çubuq şəklində olan və uclarına at tükü dəsti bağlanan kamanla çalınır. Əsasən qoz ağacından hazırlanan kürəşəkilli çanaqdan, girdə qoldan, onları birləşdirən və çanağın içərisindən keçən “şiş” adlanan dəmir mildən ibarətdir. Çanağın açıq tərəfinə nərə balığının dərisi çəkilir. Onun üzərində çəp vəziyyətdə qoyulmuş xərək yerləşdirilir. Xərəyə söykənən simlərin bir ucları şiş üzərindəki qarmaqlara, o biri ucları isə qolun üst tərəfindəki aşıqlara bağlanır.

Saz aləti. Mizrabla – təzənə ilə çalınan sazın inkişafı aşıq sənəti ilə sıx olmuşdur. Onun adı tez-tez klassik şairlərin və aşıqların şeirlərində çəkilir. Saz təzənə (mizrab) ilə çalınan simli çalğı alətidir. O, ulu ozan sənətinin davamçısı olan aşıq və saz-söz sənətinin ayrılmaz tərkib hissəsidir. Saz eyni zamanda türk dünyasının, türk mənəviyyatının rəmzlərindən biridir.

Orta əsrlərdə “saz” sözünü “musiqi aləti” mənasında istifadə edirdilər. Sözün bu mənası indiyədək Türkiyə türkcəsində işlədilir.

Ozan sənəti yüzilliklər və minilliklər boyu böyük təkamül yolu keçərək aşıq sənətinə çevrildiyi kimi, qopuz da ona oxşar təkamül yolu keçərək saz aləti şəklini almışdır. Saz artıq Şah İsmayıl Xətainin dövründə (XVI əsr) indiki formasında düzəldilməyə başlanılmışdır. Azərbaycan sazı türkdilli xalqlar arasında yayılmış saz və ona oxşar alətlərdən çalğı texnikası, səsyayımı (akustikası) baxımından danılmaz üstünlükləri ilə seçilir.

İlk sazlar kiçik çanaqlı və iki-üç simli olmuşdur. Sonralar aşıq musiqisinin inkişafı ilə “ayaqlaşan” sazın ölçüləri böyüdülmüş, sim və pərdələrinin sayı artırılmışdır. Hal-hazırda onun armuda bənzər dərin çanağı, əsasən, 9 tut ağacı zolağından yığılır, qolu isə qoz ağacından hazırlanır. Tavar və ya böyük, orta və cürə, qoltuq adlandırılan növləri vardır. Simlərin sayı tavar sazda 8-11, orta sazda 8-9, cürə sazda isə 4-7-dir. Yaxın keçmişdə uzunluğu 1500 mm-ə çatan 12 simli baş tavar və ya ana sazlar da səslənmişdir. Qoluna 17-18 və daha artıq pərdə bağlanır. 3-4 aşağı – ayaq simlər zillər, 2-3 ara simlər bəmlər, 2-4 yuxarı simlər isə dəmlər adlanır. Zil və dəm simlərin kökü daimidir. Bəm simlərin kökü ifa olunan havanın lad-harmoniya xüsusiyyətindən asılı olaraq dəyişir.

Nağara aləti. Nağara silindr şəklində olub, enli sağanaqdan ibarətdir. Nağaranın müxtəlif

növləri olur: böyük nağara, kiçik (cürə) nağara, qoltuq nağara və s. Hazırda ansambl və orkestrlərin tərkibində aparıcı alət kimi çalınan qoltuq nağaranın rolu böyükdür. Nağara ərəb sözü olub, "döyəcləmək", "taqqıldatmaq" mənasını verir. Alət hər iki əllə və barmaqlarla ifa edilir. Bəzi folklor nümunələrində iki yüngül çubuqla da çalınır. Çox güclü səs dinamikasına malik olan nağarada müxtəlif tembr çalarlarını almaq mümkündür.

Ərik, qoz, tut və cökə ağaclarından hazırlanan nağaranın sağanağı silindr şəklindədir. əsasən Keçi dərisi çəkilmiş polad çənbər çal-çarpaz dolanan kəndir vasitəsilə hər iki üzə dartılır. Gövdəsinin ölçüsündən asılı olaraq müxtəlif ad daşıyır: böyükləri – kos (həmişə kiçik növü ilə səsləndirilir), orta ölçüdə olanları qoltuq, əl nağarası, toy, kiçikləri isə cürə, bala nağara. İri nağaralar iki toxmaqla, başqa növləri isə əllə və çubuqlarla çalınır.

Qanun aləti. İncə, yumşaq və məlahətli səsi olan qanun diz üzərində saxlanılaraq şəhadət barmaqlara oymaq kimi geydirilən metal mizrablarla səsləndirilir. Qanun Şərq ölkələrində, o cümlədən Azərbaycanda da geniş yayılan musiqi alətidir. Yaxın Şərq ölkələrindən ölkəmizə gətirilsə də, qanun artıq milli xalq alətləri sırasında özünə yer almışdır. Alət bir müddət unudulsa da, ötən əsrin 50-ci illərinin sonunda yenidən orkestr, ansamblların tərkibində səslənməyə başlamışdır.

Ü.Hacıbəyli qanun alətinin özünəməxsus səs tembrini yüksək dəyərləndirmiş və bu aləti 1931-ci ildə yaratdığı, notla çalınan Azərbaycan xalq çalğı alətləri orkestrinin tərkibinə daxil etmişdir.

Gövdəsi yastı düzbucaqlı trapesiya şəklindədir. Üzünün çox hissəsi taxta olub, üzərində rezonator dəlikləri açılmışdır. Üzün aşağı hissəsinə dəri çəkilərək üzərində taxta xərək yerləşdirilir. Xərəyin üstündən metal və ya kaprondan hazırlanmış 24 üçləşdirilmiş sim (ümumi sayı 72-yə çatır) keçir. Simlərin bir ucları gövdənin düzbucaq əmələ gətirən yan tərəfində açılan dəliklərə keçirilərək düyün vurulur, o biri ucları isə taxta aşıqlara bağlanır. Aləti köklədikdə aşıqlar xüsusi açarla burulur. Aşıqlara yaxın, simlərin altından oxu ətrafında dönə bilən bir və ya iki kiçik metal xərək yerləşdirilir ki, onların köməkliyi simlərin kökünü yarım və ya bir ton yarıma qədər dəyişmək olur.

Ney aləti. Ney aləti qədim çalğı alətlərindən hesab olunur. Onun yaranma tarixi eramızdan çox-çox əvvəllərə aid edilir. Müxtəlif növləri Yaxın və Uzaq Şərq xalqları arasında, eləcə də dünyanın bir çox ölkələrində geniş yayılmışdır. Azərbaycanda neyin bir neçə növü mövcud olmuşdur.

Ney aləti içi boş, düz silindrik gövdədən ibarətdir. Alət qarşıdan, ərik, xurma ağaclarından və ya misdən hazırlanır. Səsin yaxşı çıxmasını asanlaşdırmaq üçün alətin yuxarı ucu bir qədər yonulur. Gövdənin aşağı üz tərəfində 5-7 çalğı dəliyi və arxa tərəfdə, alətin kəllə (baş) hissəsinə yaxın, bir dəlik açılır.

Ud aləti. Qartal lələyi ilə çalınan dolğun və məlahətli səsli ud qədim alətlərdən sayılır. X əsrə qədər udun dörd simi olub, sonralar ona beşinci sim əlavə edilmiş və səsin gur çıxması üçün hər sim qoşalaşdırılmışdır. Əvvəlcə Siciliya adasına və İspaniyaya gətirilmiş ud artıq orta əsrlərdə bütün Avropada yayılmışdı. XVII-XVIII əsrlərdə ən yüksək inkişaf mərhələsinə çatmış ud tədricən üstünlüyünü itirir və onun yerini skripka, gitara tutur. O yalnız Şərq ölkələrində üstünlüyünü saxlayır.

Müasir ud iri, qabarıq, armuda bənzər qoz ağacı dilimlərindən (20-yə qədər) quraşdırılmış çanağa, pərdəsiz qısa qola və geriyə əyilmiş kəlləyə malikdir. Taxta üzündə yaxşı səslənməsi üçün rezonator dəlikləri açılmışdır. Üzün aşağı hissəsində xərək yerləşdirilir və simlər bilavasitə ona bağlanır. Beş qoşalaşmış simi var. Bəzən ona əlavə tək sim də qoşulur. 1-ci və 2-ci qoşa simlər bağırsaqdan, qalanları isə metaldandır.

Tulum aləti. Bu alət vaxtilə Qarabağda, Qazax, Tovuz və Naxçıvanda geniş istifadə edilən dəridən hazırlanmış alət idi. Hazırda əsasən Naxçıvan Muxtar Respublikasında rast gəlmək olar.

Başqa nəfəsli çalğı alətləri kimi tulumun da çox qədim tarixi vardır. Alimlərimiz tulumun yaranma tarixini sinifli cəmiyyətin ilk dövrlərinə aid edirlər. Hazırda tulumun müxtəlif növləri fərqli adlarla Qafqaz, eləcə də bir sıra Avropa xalqları arasında geniş istifadə edilir. Maldarlıq, əsasən də, qoyunçuluqla məşğul olan köçəri tayfalar tulumdan çox istifadə etmişlər.

Səs tembri zurnanın səsinə bənzədiyi üçün bəzən ona "tulum zurnası" da deyilib. Tulum xüsusi üsulla aşılanıb yumşaldılmış keçi və ya qoyun dərisindən hazırlanır. Bütöv soyulmuş dərinin

iki ayağı möhkəm bağlanılır. Qalan ikisindən birinə tuluma hava doldurmaq üçün sümükdən və ya qamışdan hazırlanmış, ağzında tıxacı olan boru, digərinə isə aləti ifa etmək üçün iki qoşa boru (gövdə) bərkidilir.

Uzunluğu 260-280 mm olan həmin gövdələrin üzərində 7 oyuq açılır. İfaçı sol qoltuğunda tutduğu içərisi hava ilə doldurulmuş tuluğu azacıq təzyiqlə sıxmaqla havanı borulara daxil olmağa məcbur edərkən hər iki əlin barmaqları ilə oyuqları açıb-bağlamaqla istənilən səs ucalığını əldə edə bilir. Birinci boruda melodiya çalınır, ikincisində isə həmin melodiyanın tonikası saxlanılır.

Azərbaycanın şəfalı dağlarında, aran yerlərində, şəhər və kəndlərində ulu babalarımızdan qalan nəfəs alətlərindən balabanın məlahətli, zurnanın gur, möhtəşəm, tütək və neyin həzin səsləri eşidilməkdədir. Azərbaycanın şimal və şimal-qərb bölgələrində ksula, Naxçıvanda isə yan-tütəyə və çalğıçıların saatlarla səsləndirdiyi tuluma rast gəlinir.

Orta əsrlərdə Azərbaycanda başqa nəfəs alətləri də yayılmışdı. Onlardan aşağıya doğru tədricən genişlənən uzun burğunu, onlardan qısalığı ilə seçilən, lakin ağzı kəskin genişlənən buğ, müxtəlif uzunluqda səkkiz borudan ibarət olan musiqarı, uzunluğu 2 metrə çatan və aşağıya doğru ağzı genişlənən kərənayı, uzunluğu nisbətən kiçik nəfiri, ağzı bir qədər geniş, uzun, düz borudan ibarət olan şeypuru göstərmək olar. Kərənaydan fərqli olaraq borusu bükülmüş alət gavdum, nəfirin buynuz kimi əyilmiş növü şahnəfir, tütəyə oxşar alət mizmar adlanırdı.

Kəskin səsli nayla yanaşı, eyni adla həzin səsli alət də yayılmışdı. Müasir orqanın əcdadı sayılan ərğan çoxlu borulardan təşkil olunub, körük vasitəsilə səsləndirilirdi. Yaxın keçmişdə tütəyin ibtidai növü sümsü, sümsü-balabanın və eləcə də quş şəkilli burbuğun və kələnayın (kələzurnanın) səsini eşitmək olurdu. İndi də ara-sıra şapbır-balaban səslənir.

Üzeyir bəyin təbirincə zərb alətlərindən "ən zərifi" qaval, özünə məxsus səsi olan nağara, qoşanağara, dümbək dövrümüzdə ən geniş yayılan zərb alətlindəndir.

Qaval ensiz, dairəvi şəkilli ağac sağanaqdan ibarət olub, bir üzü açıq, o biri üzünə isə balıq dərisi çəkilmişdir. Sağanağa daxili tərəfdən metal halqalar bərkidilir. Diametri 340-456 mm, eni isə 40-50 mm-dir. Qavalda səslər hər iki əlin ovucları və barmaqları dəri üzün kənarına və ya mərkəzinə vurmaqla, həmçinin aləti silkələməklə alınır.

Qoşa nağara aləti. Xalq musiqisində ən çox istifadə edilən zərb çalğı alətlərindən biridir. Adından məlum olduğu kimi, qoşa nağara bir-birinə bərkidilmiş iki kiçik qədəhvarı nağaradan ibarətdir. Bəzən "qoşa dumbul" da deyilir. Bu alətin hazırlanmasında əvvəllər gildən, sonralar isə ağacdan və metaldan istifadə olunmuşdur. Üzləri dəvə, dana və yaxud keçi dərisindən hazırlanaraq metal burğular ilə gövdəyə bərkidilir. Həmin burğuların vasitəsi ilə alətin köklənməsi də təmin olunur. Alət yerə və yaxud xüsusi mizin üzərinə qoyularaq iki ağac toxmaqla çalınır. Qoşa nağara fərdi şəkildə hazırlandığı üçün ölçüləri müxtəlifdir. Əksər hallarda hündürlüyü 300-330 mm, böyük gövdəsinin diametri 240-280 mm, kiçiyinin isə 110-140 mm olur. Gildən hazırlanmış qoşa nağara (Bakı, XVIII əsr) M. Kərimov tərəfindən aşkar edilmiş və onun şəxsi kolleksiyasında saxlanılmışdır. Milli musiqinin folklor nümunələrində, o cümlədən orkestr və ansambllarda istifadə edilir. Özünəməxsus səs tembri olan qoşa nağara solo aləti kimi nadir hallarda səsləndirilir.

Qoşanağara (dumbul, dümbələk də adlanır) eyni hündürlüklü, ancaq müxtəlif ölçülü iki qoz, tut ağaclarından və metaldan hazırlanan gövdədən ibarətdir. Xarici görünüşünə görə fincanı xatırladır. Gövdələrin üst tərəfinə çəkilmiş keçi, öküz, dəvə və ya at dərisi camış gönündən düzəldilən köşə ilə və ya vint mexanizmi ilə dartılır. Çalğı zamanı çubuqları ayrı-ayrılıqda hər iki dəri üzə, bir üzə (mərkəzinə və kənarına), bir-birinə və ya gövdəyə, ovucun üzə vurulması ilə müxtəlif səslər alınır. Dümbəyin piyaləni xatırladan gövdəsi (əvvəllər gildən hazırlanırdı, indi əsasən ağacdan düzəldilir), geniş üst tərəfinə keçi dərisi çəkilir və bir-birinə çal-çarpaz sarınan qayışla və ya vint mexanizmlə dartılır. Alətin hündürlüyü 350-400 mm-dir. Çalma tərzi qavaldakına oxşayır.

Dəf aləti. Dəf alətinin Miniatür sənət əsərlərində təsvir edilmiş saray musiqi məclislərində çəng-ney-dəf, bərbət-çəng-ney-dəf, ney-tənbur-dəf kimi alət qruplarında dəfin xüsusi yeri olmuşdur. Sağanağına dörd yerdən hər birində bir cüt mis camlar bərkidilir ki, bu da idiomembranlı alətin səs tembrini təmin edir. Sağanağı qoz, üzü isə balıq dərisindən hazırlanır. Dəfin diametri 250–260 mm, sağanağının qalınlığı 45–50 mm-dir. Hazırda nadir hallarda istifadə etmək olar.

Özüsəslənən alətlər sırasına şaxşax, kaman, laqquti daxildir. Şaxşax (çalpara) dəstəyin yuxarı

hissəsinə iplə bərkidilmiş bir tərəfi qabarıq iki dairəvi taxta lövhəcikdən (kasadan) ibarətdir. Aləti dəstəyindən tutub silkələdikdə, onlar bir-birinə dəyərək səs verir. Kamanın 400 mm-ə yaxın uzunluqda ağac hissəsi yay kamanı şəklində əyilmişdir. Onun ipdən düzəldilmiş girişinə metal lövhəciklər, halqa və zınqırovlar keçirilərək uclarını ağacın uclarına bağlanır. Rəqs zamanı yallıbaşı aləti ortasından tutaraq, aləti silkələməklə və ona tək-tək zərbələr endirməklə rəqsin ritmini saxlayır. Laqquti ölçülərinə görə fərqlənən iki düzbucaq şəklində yastı ağac tircikdən ibarətdir. Onların uzun yan tərəfi boyu dərin rezonator yarıqları yonulmuşdur. Çalğı üçün iki çubuqdan istifadə olunur.

Vaxtilə Azərbaycanda cərəs, sinc, zəng, dəray, qımro, kasə, ağız-qopuzu, zınqırov, çan, teşt, səfail, qaşığek, zil və xəlxaldan da istifadə olunurdu. Daha geniş yayılan sinc və dəray əsasən hərbi yürüşlərdə, cərəs köç zamanı, bilərzik şəklində olan və üst tərəfdən qımrolar bərkidilən xəlxal, kiçik zəng şəklində olan cərəsdən isə rəqqaslar istifadə edirdilər.

Ənənəvi çalğı alətlərimiz birləşərək müxtəlif çalğıçı dəstələri təşkil edirlər. Qaval çalan xanəndə, tarzən və kamançaçıdan ibarət olan məşhur muğam “üçlüyü” – sazəndə, cürə sazlarda ifa edən sazçı qızlar, aşıq, nağaraçıların qoşulduğu zurnaçılar, balabançılar, damburçular, tulumçular və habelə nağaraçılar dəstələri xalqın böyük rəğbətini qazanmışdır.

Bəstəkarlarımız tar, kamança, saz, qanun, balaban, zurna üçün konsert, sonata, pyes və başqa janrda əsərlər yazmışlar.

Görkəmli orqonoloq alim, professor Məcnun Kərimov tərəfindən unudulmuş alətləri bərpa edərək yenidən ansamblların tərkibinə daxil edilməsi üçün böyük axtarış işləri aparılmış və onun sayəsində bir sıra alətlər həyata qaytarılmışdır. Onların sırasında rud, rübab, bərbət, çəng, qopuz, çoğur, çəğanə, şirvan tənburu, santur, nüzhə vardır. Bu şərəfli işə sənətşünaslıq namizədi Abbasqulu Nəcəfov da qoşulmuşdur. Artıq bərpa edilmiş çalğı alətlərindən təşkil olunmuş ansambl fəaliyyət göstərir. Şübhəsiz, yaxın gələcəkdə onlar ənənəvi alətlərimizə qoşularaq, orkestr və ansambllarımızın səsini daha rəngarəng və möhtəşəm edəcəkdir.

Araşdırma zamanı məlum oldu ki, musiqi alətlərinin yaranması və indiki görünüşdə formalaşmasına qədər olan mərləhə uzun bir prosesi əhatə edir. Xalq çalğı alətlərinin yaranması insan cəmiyyətinin erkən inkişaf mərhələsində əmək prosesi ilə bağlı olmuş, onların bir çoxu ilkin yaranış formasında olduğu kimi müasir dövrümüzə gəlib çatmış, qədim xalq çalğı alətlərinin bərpası ilə məşğul olan tədqiqatçıların bu yöndə apardıqları araşdırmalar xüsusilə əhəmiyyətli olmuşdur.

Hazırda milli xalq çalğı alətlərinin öyrənilməsi Azərbaycan orqanologiya elminin əsas istiqamətini təşkil edir. Bu istiqamət üzrə aparılan tədqiqatlar Azərbaycan xalq çalğı alətlərinin dərindən araşdırılması istiqamətində mühüm addımlar kimi dəyərləndirilməlidir. Eyni zamanda mövcud olan xalq çalğı alətləri ilə yanaşı, unudulmuş alətlərin bərpası, onların inkişaf və quruluş xüsusiyyətlərinin öyrənilməsi müasir dövrdə orqanologiya elmi qarşısında duran mühüm vəzifələrdəndir. Bu istiqamətdə ənənəvi musiqi alətlərinin morfoloji-orqanoloji tədqiqi, musiqi alətlərinin istifadə olunma xüsusiyyətləri öyrənilməsi vacib məsələlərdəndir və aparılan elmi-tədqiqatların əksər hissəsi bu mövzulara doğru yönəldilmişdir.

Azərbaycan xalq çalğı alətlərinin inkişaf tarixi və təkamülünün, texniki-bədii imkanlarının və tətbiqi sahələrinin öyrənilməsinin əsas mənbələri musiqişünaslıq əsərləri, klassik poeziya nümunələri, şifahi xalq yaradıcılığı, tarixi salnamələr, qocaman musiqiçilərin, həvəskarların və digərlərinin məlumatlarına əsaslanır.

**Nəticə**

Azərbaycanda mövcud olmuş və hazırda da istifadə olunan xalq çalğı alətlərinin növləri müəyyənləşdirilərkən, klassik poeziyada da rast gəlinən müəyyən məlumatlar əsas rol oynayır. Belə ki, klassik poeziya nümunələrində alətlərin adlarının qeyd olunması ilə yanaşı, onların quruluşu, tembr xüsusiyyətləri, istifadə sahəsi, xarici görünüşü və digər bizə məlum olmayan tərəfləri haqqında məlumatlarla rastlaşmaq mümkündür.

## ƏDƏBİYYAT

**Azərbaycan dilində**

1. Abdullayeva, S.A. Azərbaycan xalq çalğı alətləri (tarixi-orqanoloji tədqiqat) / S.A.Abdullayeva. – Bakı: 2002. – 454 s.

2. Hacıbəyli, Ü.Ə. Əsərləri. II cild . Bakı: 1965. – 653 s.
3. Kərimov, M., Novruzov, A. Azərbaycan xalq çalğı alətləri: not ifaçılığı tarixi. – Bakı: 2017. – 192 s.
4. Məmmədov, M.M. Azərbaycan xalq çalğı alətlərinin təkmilləşdirilməsi / M.Məmmədov. – Bakı: 2018. – 236 s.
5. Nəcəfzadə, A.İ. Azərbaycan çalğı alətlərinin izahlı lüğətı / A.Nəcəfzadə. – Bakı: 2004. – 224 s.
6. Nəcəfzadə, A.İ. Etnoorqanologiya / A.İ.Nəcəfzadə. – Bakı: 2016. – 304 s.
7. Rəhmətov, Ə.M. Azərbaycan xalq çalğı alətləri və onların orkestrdə yeri / Ə.Rəhmətov. – Bakı: 1979. – 107 s.

**Rus dilində**

8. Абдуллаева, С.А. Народные музыкальные инструменты Азербайджана / С.Абдуллаева. – Баку: Ишыг, – 1972. – 36 s.
9. Керимов, К.Г. Оркестр азербайджанских народных инструментов / К.Керимов. – Баку: Ишыг, – 1959. – 58 s.

***Naxçıvan Dövlət Universiteti***
***e-mail:huseynlisevda460@gmail.com***

**Sevda Huseynova**

## SPECIFIC CHARACTERISTICS OF THE TECHNICAL AND ARTISTIC EXPRESSION POSSIBILITIES OF AZERBAIJAN FOLK MUSICAL INSTRUMENTS

In the article, the specific features of the technical and artistic expression possibilities of Azerbaijani folk musical instruments were investigated, each instrument was analyzed according to its structure, sound range and timbre. It was concluded that each instrument has its own individual performance characteristics. During the research, it became clear that the stage up to the creation of musical instruments and their formation in their current form includes a long process. The creation of folk musical instruments was related to the labor process at the early stage of the development of human society, many of them have reached our modern times in their original form, and the research conducted by researchers engaged in the restoration of ancient folk musical instruments in this direction has been particularly important. Currently, the study of national folk musical instruments is the main direction of the science of organology in Azerbaijan. Researches conducted in this direction should be evaluated as important steps in the direction of in-depth research of Azerbaijani folk musical instruments. Along with existing folk musical instruments, recovery of forgotten instruments, study of their development and structural features are among the important tasks facing the science of organology in modern times. In this direction, the morphological-organological study of traditional musical instruments, the study of the characteristics of the use of musical instruments are important issues, and most of the conducted scientific researches are directed towards these topics. The main sources of studying the history and evolution of Azerbaijani folk musical instruments, their technical and artistic capabilities and fields of application are based on musicological works, examples of classical poetry, oral folk creativity, historical chronicles, information of old musicians, amateurs and others. When determining the types of folk musical instruments that existed and are still used in Azerbaijan, certain information found in classical poetry plays a key role. So that,In addition to mentioning the names of the instruments in the examples of classical poetry, it is possible to find information about their structure, timbre characteristics, field of use, appearance and other unknown aspect.

**Keywords:** *Azerbaijan music, folk musical instruments, organology*

**Севда Гусейнова**

## ОСОБЕННОСТИ ТЕХНИЧЕСКИХ И ХУДОЖЕСТВЕННЫХ ВЫРАЗИТЕЛЬНЫХ ВОЗМОЖНОСТЕЙ АЗЕРБАЙДЖАНСКИХ НАРОДНЫХ МУЗЫКАЛЬНЫХ ИНСТРУМЕНТОВ.

В статье исследованы особенности технических и художественных выразительных возможностей азербайджанских народных музыкальных инструментов, проанализирован каждый инструмент по его строению, звуковому диапазону и тембру. Сделан вывод, что каждый инструмент имеет свои индивидуальные эксплуатационные характеристики. В ходе исследования выяснилось, что этап до создания музыкальных инструментов и формирования их в нынешнем виде включает в себя длительный процесс. Создание народных музыкальных инструментов было связано с трудовым процессом на раннем этапе развития человеческого общества, многие из них дошли до нашего времени в своем первозданном виде, а исследования, проводимые исследователями, занимающимися реставрацией старинных народных музыкальных инструментов, инструменты в этом направлении имели особое значение. В настоящее время изучение национальных народных музыкальных инструментов является основным направлением науки органологии в Азербайджане. Исследования, проводимые в этом направлении, следует оценивать как важные шаги на пути углубленного изучения азербайджанских народных музыкальных инструментов. Наряду с существующими народными музыкальными инструментами восстановление забытых инструментов, изучение их развития и особенностей строения относятся к числу важных задач, стоящих перед наукой-органологией в наше время. В этом направлении важными вопросами являются морфолого-органологическое изучение традиционных музыкальных инструментов, изучение особенностей использования музыкальных инструментов, и на эти темы направлено большинство проводимых научных исследований. Основные источники изучения истории и эволюции азербайджанских народных музыкальных инструментов, их технических и художественных возможностей и областей применения основаны на музыковедческих трудах, образцах классической поэзии, устном народном творчестве, исторических хрониках, сведениях старых музыкантов, любителей и других. . При определении типов народных музыкальных инструментов, существовавших и используемых до сих пор в Азербайджане, ключевую роль играют определенные сведения, встречающиеся в классической поэзии. Так что, помимо упоминания названий инструментов в примерах классической поэзии, можно найти информацию об их строении, тембровых характеристиках, области использования, внешнем виде и других неизвестных аспектах.

**Ключевые слова:** *Азербайджанская музыка, народные музыкальные инструменты, органология*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 06.02.2024**
**Son daxilolma tarixi:09.03.2024**